# Yeni enerji paradiqması: Azərbaycan-Suriya əməkdaşlığı və geosiyasi reallıqlar

**"Avqustun 2-də Türkiyənin Kilis şəhərində baş tutan tədbir bir daha göstərdi ki, Azərbaycan enerji diplomatiyasını yalnız Avropaya yönəltməklə kifayətlənmir, bu siyasət artıq Yaxın Şərqin geosiyasi oyunçularını da əhatə edir. Məhz həmin gün Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ötürülməsi ilə bağlı ilk rəsmi mərasim keçirildi. Bu, enerji daşıyıcılarının istiqamətində yeni cığırın açıldığını göstərir və Azərbaycanın Yaxın Şərq strategiyasında yeni səhifə açır".**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Müşfiq Məmmədli bildirib.

O qeyd edib ki, son onillikdə dağıdıcı müharibə ilə üzləşən Suriya bu gün yeni mərhələyə qədəm qoyur - bərpa və dövlət institutlarının dirçəldilməsi mərhələsinə. Bu dövrdə Azərbaycan həmin prosesin kənarında dayanmaq əvəzinə aktiv rol almağa qərar verib. İyulun 12-də Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Bakıya səfəri, ondan əvvəl Antalyada Azərbaycan və Suriya prezidentləri arasında baş tutan təmaslar rəsmi Bakının bu bölgəyə marağının təsadüfi olmadığını göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa göstərişi ilə Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyətinin Suriyaya səfəri isə sadəcə protokol xarakterli addım deyil, bu, konkret planların araşdırılması və tətbiqi mərhələsidir. Azərbaycan bu ölkənin enerji infrastrukturunun bərpasına, iqtisadi sabitliyinin təmin olunmasına dəstək verməklə yanaşı, öz enerji siyasətini də yeni coğrafiyalara inteqrasiya edir.

Deputatın sözlərinə görə, Azərbaycan bu günə qədər əsasən Avropa ölkələrinə qaz ixrac edir. Hazırda 14 ölkə bu siyahıya daxildir. Lakin dəyişən enerji bazarları və geosiyasi risklər fonunda qaz ixracının diversifikasiyası artıq zərurətə çevrilib. Bunun üçün ən uyğun platformalardan biri də Yaxın Şərqdir. Azərbaycan qazının Suriyaya ixracı, əslində, daha böyük strateji planın tərkib hissəsidir. Suriya təkcə son istehlakçı kimi deyil, həm də tranzit məntəqə kimi mühüm rol oynaya bilər. Suriyanı İordaniya ilə birləşdirən, lakin münaqişə zamanı dağıdılmış qaz kəmərinin bərpası bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Əgər bu infrastruktur yenidən işə salınarsa, Azərbaycan qazı Misirə qədər uzanan marşrut üzrə



nəql edilə bilər. Bu həm də "Cənub-Qərb" enerji dəhlizinin genişlənməsi deməkdir.

Elektrik enerjisi ixracında yeni perspektivlərdən danışan Müşfiq Məmmədli deyib: "Enerji ixracı təkcə qazla məhdudlaşmır. Azərbaycan elektrik enerjisi sahəsində də ciddi inkişaf əldə edib. Günəş və külək enerjisi ilə yanaşı, su və istilik stansiyalarının gücü artırılır və artıq ixrac potensialı yaranıb. Yaxın Şərq ölkələri isə bu sahədə etibarlı tərəfdaş axtarışındadır. Azərbaycan həm texniki, həm də diplomatik baxımdan bu boşluğu doldurmaq imkanına malikdir".

Deputat bildirib ki, Azərbaycanın Suriya ilə münasibətləri daha geniş bir strategiyanın tərkib hissəsidir. Rəsmi Bakı artıq uzun illərdir ki, Avropa İttifaqı, Türkdilli Dövlətlər Təşkilatı və ŞƏT kimi platformalarda fəal rol oynayır. Eyni fəallıq indi Yaxın Şərqdə müşahidə olunur. Burada Azərbaycanın fərqləndirici cəhəti onun balanslı və qarşılıqlı hörmətə əsaslanan yanaşmasıdır. Prezident İlham Əliyevin xarici siyasəti bu fəallığın arxasında dayanan əsas mexanizmdir. Onun təşəbbüsləri nəticəsində Azərbaycan yalnız enerji resurslarının ixracatçısı deyil, eyni zamanda münaqişədən çıxan ölkələr üçün etibarlı tərəfdaş, təcrübə paylaşan və iqtisadi inkişafı təşviq edən aktora çevrilib.

"Azərbaycan-Suriya əməkdaşlığına yalnız qaz ixracı prizmasından baxmaq bu təşəbbüsün mahiyyətini dəyərləndirməkdə yetərli deyil. Bu, Azərbaycanın regionda artan nüfuzunun, enerji diplomatiyasını geosiyasi alət kimi istifadə etməsinin və beynəlxalq münasibətlər sistemində dinamik, adaptiv oyunçuya çevrilməsinin göstəricisidir. Suriya ilə əməkdaşlıq, əslində, Azərbaycanın Yaxın Şərqə yalnız enerji deyil, sabitlik və tərəfdaşlıq modeli ixrac etməsidir. Bu isə gələcək üçün çoxşaxəli, dayanıqlı və qarşılıqlı faydaya əsaslanan regional inteqrasiya perspektivlərini artırır", - deyə M.Məmmədli vurğulayıb.

Azərbaycan.- 2025.- 5 avqust (№ 161).- S.7.